IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 22 Issue 01 IYUN 2026

BƏDII ƏSƏRLƏRDƏ TARIXILIK VƏ MÜASIRLIK ESTETIK KATEQORIYA KIMI

Ulduz Fərhad Qəhrəmanova

filologiya üzrə fəlsəfə doktoru,

Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Ədəbiyyat" kafedrasında dosent əvəzi
ulduzkahraman1@gmail.com

Orcid İD: 0009-0003-4418-9319

Annotasiya: Məqalədə Azərbaycan ədəbiyyatında tarixi nəsr əsrlərində 2 tip tarixi əsər fərqləndirilməsi qeyd edilir. Tədqiqatçı 2 tip nəsr əsərlərini müəyyənləşdirmişdir:

I tip. Sənədlilik prinsipi ilə yazılan romanlar II tip. Qeyri-sənədlik prinsipi əsasında yazılan, yəni tarixi hadisələri "nağıllaşdıran" romanlar. Elmi təhlillərdən tədqiqatçı müəyyənləşdirmişdir ki, tarixi mövzunun bədii əksinin əsasında 2 estetik kateqoriya dayanır:

1.Tarixi həqiqət 2. Bədii həqiqət (Həyat həqiqəti) Elmi araşdırmadan aydınlaşır ki, müasir mövzu ilə mövzunun müasirliyi tamamilə fərqli anlayışdır. Tədqiqatçı əsaslandırmışdır ki, tarixi və müasir mövzulu əsərlərdə müasirlik ruhu olmalıdır ki, əsərlər illər ötüb keçsə də, tarix müstəvisində qala bilsin.

Açar sözlər: tarixilik, müasirlik, estetik, kateqoriya, bədii əsər

HISTORICITY AND MODERNITY AS AN AESTHETIC CATEGORY IN WORKS OF ART

Summary: 2 types of historical works are distinguished in Azerbaijani historical prose:

I type. Novels written on the principle of documentary: "Between Two Fires", "Sword and Pen", "Mashhar", "Khudafar's Bridge", "Battle of Chaldiran", "Gızılbaşlar" and others. The plot of such historical novels is based on known and famous historical events. At the center of the plot is the image of prominent historical figures.

Type II. Novels written on the basis of the non-documentary principle, i.e., "narratives" of historical events: "Girls' Fountain", "Deli Kura", "Koç", etc. The plot of such historical works of fiction is completely fabricated, but the historical event and historical concreteness described in the work are beyond doubt. What is required is to correctly understand and honestly show the general characteristics of that period. In such novels, the theme and plot are written based on the author's fantasy. Some literary critics do not consider it important to be based on documents and real historical events. They see history not in the expectation of accuracy of facts, but in the correct presentation of the spirit of the era.

Key words: historicity, modernity, aesthetics, category, artistic work

Giriş: Dünya ədəbiyyatında realist tarixi romanın yaranması ingilis yazıçısı Volter Skotun (1771-1832) adı ilə bağlıdırsa, Azərbaycan ədəbiyyatında tarixi mövzuya marağın tarixi Volter Skott romanından o qədər də uzaq deyil. Belə ki, M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri (1857) də öz tarixi mövzusu ilə Volter Skotun tarixə marağın Azərbaycan ədəbiyyatındakı əks-sədası sayıla bilər. Mirzə Fətəli Axundovun bu əsərinin süjetinin əsasını tarixi hadisə təşkil edir. Şah Abbas, Yusif Sərrac da tarixi şəxsiyyətlərdir. Əsər XVI əsr İran tarixinin Səfəvilər sülaləsi dövründən götürülmüşdür. Tarixi mövzuda yazıldığı üçün "Aldanmış kəvakib" tarixi romandır.

Mirzə Fətəli Axundzadəyə görə tarixi və bədii həqiqət problemi ilə bağlı 2 münasibət var:

1.M. F.Axundzadəyə görə, bədii əsər tarix deyil. Ona görə də tarix elmindəki dəqiqliyi orada axtarmaq lüzumsuzdur.

2.Tarixi fakt və mənbə bədii əsərdə bədii həqiqət məzmunu alır və bu yazıçıya tarixi fakt və materialın məzmununu genişləndirməyə imkan verir.

M.F.Axundovun tarixi mövzuya müraciəti Belinskinin əsərlərinin vasitəsilə V.Skottun ədəbiyyat təcrübəsinə əsaslanmağından irəli gəlir. V.Skott tipində əsər yazmaq təşəbbüsü "bədii təcrübəyə istinad" adlanır. Axundovun fikrincə, bədii əsər tarix deyil. Tarix elmindəki dəqiqliyi orada axtarmaq lüzumsuzdur. Tarixi fakt və mənbə bədii əsərdə bədii həqiqət məzmununu alır və bu yazıçıya tarixi fakt və materialın məzmununu genişləndirməyə imkan verir.

Araşdırma: Azərbaycan bədii nəsrində tarixi mövzuya müraciətin ilk inkişaf mərhələləri sovet dövrünə XX əsrin 30-cu illərinə düşür. Bu dönəmdə tarixi mövzulara laqeyd münasibət bəslənməsi faktı ilə tez-tez qarşılaşmaq mümkündür. Belə ki, Sovet dövründə hətta keçmişdən, tarixdən yazan sənətkarları müasirlikdən qaçan "fərari" adlandırırdılar. 30-cu illər tənqidinin tarixi mövzuya müraciət münasibəti inkarçılıqdan çox, metodoloji xarakter daşıyırdı. Belə ki, istənilən tarixi dövrə müraciət etmək olardı. Lakin həmin müraciət sovet metodologiyasına xidmət etməli idi. Bu metodologiyanı isə M.Qorki hazırlamış və öz məqalələrində ifadə etmişdi. Qorkinin metodoloji konsepsiyasında tarixə obyektiv baxış arxa plana atılır, yazıçı mövqeyinə tendensiyalı xarakter verilirdi. Bu konsepsiyada tarixi mövzulu əsərlərdə keçmiş öz obyektiv mənzərəsi ilə yox, ancaq eybəcər tərəfləri ilə təhlil predmetinə çevrilməli, onun rəzalətləri üzə çıxarılmalı idi. Qorkinin konsepsiyasında tarixilik tarixi həqiqətin təhrifinə, müasirlik isə müasirləşdirməyə tabe tutulurdu. Bu konsepsiyaya uyğun olaraq ədəbi tənqid tarixi mövzuda yazılan əsərlərə tənqidi yanaşırdı.

XX əsrin 30-cu illərinə qədər tarixi mövzuya müraciət faktları bədii nəsrdən çox dramaturgiyada diqqət çəkir. Məsələn: "Nadir şah" (N.Nərimanov), "Ağa Məhəmməd Şah Qacar" (Ə.Haqverdiyev). Bu pyeslərdə də tarixi mövzunun çərçivəsində tarixilik və müasirlik keyfiyyətinin sintezini görmək olur. 20-30-cu illərdə tənqid tarixi mövzunu tarixilik və müasirlik kateqoriyalarının sintezində dərk edə bilmirdi. Ədəbi tənqid Sovet dövründə yazıçıları gündəlik həyatdan mövzu götürməyə çağırır. Ədəbi tənqid Sovet dövründə müasirliyi müasir həyatdan yazmaq kimi başa düşürdü.

Azərbaycan ədəbiyyatı 1950-ci illərin sonu 1960-cı illərdən başlayaraq yeni keyfiyyət mərhələsinə daxil olması ilə şərtlənən bir dövr yaşamışdır. Stalinin diktatura rejimi öz ömrünü başa vurur və N.S.Xruşşovun hakimiyyətə gəlişi ilə siyasi iqlimin mülayimləşməsi ədəbi-mədəni sferaya da öz təsirini göstərir. Belə ki, ədəbiyyatda insan amilinin ön plana keçməsi, milli şüurun formalaşmasında xüsusi rol oynadı. Milli özünüdərkə, milli kimliyə artan maraq cəmiyyətin sosial sifarişi səviyyəsinə qalxdı. Bədii nəsrdə tarixə maraq gücləndi. Tarixin ədəbiyyat vasitəsi ilə dərki milli intibah hərəkatının əsas istiqamətlərindən birinə çevrildi.

Azərbaycan tarixi romanının inkişafında yeni keyfiyyət mərhələsi 60-cı illərdən, yəni İ.Şıxlının "Dəli Kür" romanı ilə başlayır və bu roman vasitəsilə sənətkar tarixi romanın janr poetikasına novatorluq gətirir. 1940-1950-ci illərdə sənətkar siyasi rejimin tələqinləri və sosrealizmin metodoloji tələbləri ilə bağlı tarixi təhriflərə bilərəkdən yol verə bilirdi. Yəni tarixi gerçəkliyin dürüst təsvir imkanı təhrif edilə bilər. Məqsəd tarixi şəxsiyyətlərin rolunu azaltmaq idi. Deməli, bu dönəmdə tarixi faktlar, tarixi şəxsiyyətlər ifrat sərbəst təsvir edilir, hətta yetərincə təhrif olunur.

Tədqiqat əsərlərində 50-ci illər tarixiliyin mahiyyətinin inqilabın tarixiliyində axtarılması da qabardılmışdır. Bu da təbii ki, yanlış tendensiya idi. Tarixi mövzunun bu cür transformasiyası partiyanın ədəbiyyat siyasətindən irəli gəlirdi. Bu Mərkəzi Komitənin tarixi mövzuya sırf ideoloji münasibətindən irəli gəlirdi. Mərkəzi Komitənin tarixi mövzuya ideoloji münasibəti araşdırma işində belə təqdim olunmuşdur:

I.Tarixi mövzunu arxa plana atıb yazıçıları müasir mövzulara istiqamətləndirmək, partiyanın göstərişlərinə əməl etmək. Bu da tarixi mövzudan dolayısı ilə imtina etmək demək idi.

II. Tarixi mövzunu tarixi-inqilabi mövzu kimi başa düşüb izah və təbliğ etməkdən ibarət idi. Yəni 1950-ci illərin ədəbiyyat siyasətində tarixi mövzu sosialist inqilabının tarixindən bəhs etmək kimi başa düşülür, qəbul edilir və estetik düşüncəyə ötürülürdü.

1970-1980-ci illərdə tarixi mövzuya meyl vüsətli bir hal aldı. Bu illərdə tarixi roman ənənəvi janr qəlibindən çıxdı. Tarixi romanlarda kökə qayıtmaq və kökün yenidən tarixi-fəlsəfi yaşanılması ilə qarşıya özünüdərketmə məqsədi qoyuldu. Hər bir xalq öz keçmişini bilmək və bədii sənəd səviyyəsində əbədiləşdirmək istəyir, özünü dərk etmək üçün dünəninə qayıdır. 80-ci illərdən etibarən tarixə münasibətdə milli düşüncə tərzi önə keçmişdir.

Tədqiqat əsərlərində tarixiliyin tipoloji ümumiləşdirilməsi yolları aşağıdakı şəkildə qruplaşdırılmışdır:

I yol: Tarixi mövzunun sənədlilik, yəni tarixi mənbələr əsasında işlənməsidir. Müasirlik bu tipli mövzularda tarixi materialın varlığında gizlənir.

II yol: Tarixiliyə, tarixi keçmişə sənətkarın bilərəkdən tendensiyalı, ideoloji yanaşması, bilərəkdən tarixi faktları təhrif etməsidir. Bu zaman müasirlik mövzunun bətnindədir. Məsələn: H.Cavidin “Topal Teymur”, “Peyğəmbər” əsərlərində tarixi mövzuya ideoloji mövqedən yanaşılmışdır. Bilərəkdən sənətkar tərəfindən tarixi faktları təhrif etmək mahiyyətcə tarixiliyin təhrifinin müasirləşdirilməsidir. Bu “yol” tək “sovet ədəbiyyatı”na yox, burjua ədəbiyyatına da aiddir. Yəni II yol “tarixi hadisələri sərbəstcəsinə dəyişdirmək”dir. Bu da obyektiv tarixi həqiqəti inkara aparan yoldur.

Tarixi mövzunun bədii əksinin əsasında 2 estetik kateqoriya dayanır:

1.Tarixi həqiqət 2. Bədii həqiqət (Həyat həqiqəti)

1.Tarixi həqiqət: Tarixdə baş vermiş hadisələrdir ki, həmin tarixi hadisələri sənətkar özünə mövzu seçməklə ideyasını oxucuya çatdırır. Tarixi mövzularda yazılmış əsərlərdə müasirlik ruhu olmalıdır ki, əsər yaşasın. Bu gün ədəbiyyatımızda öyrənilən tarixi əsərlərdə yüksək müasirlik keyfiyyətləri olduğu üçün həmin əsərlər illər keçdikcə öz aktuallığını qoruyub saxlayır. Bu həmin əsərlərdə güclü müasirlik ruhunun olmasından irəli gəlir. Məsələn: Nəriman Nərimanov “Nadir şah”, Məmməd Rahim “Xurşidbanu Natəvan”, İlyas Əfəndiyev “Şeyx Xiyabani”, “Hökmdar və qızı”, Məmməd Səid Ordubadi “Dumanlı Təbriz”, “Qılınc və qələm” adlı tarixi əsərlər müasirlik keyfiyyətləri ilə xüsusilə seçilən əsərlərdəndir.

Tarixi bir əhvalatdan istifadə edərək yaşanılan dövrün eybəcərliklərini tənqid məqsədi güdmək tarixi mövzunun işlənilməsində tarixilik prinsipini arxa plana keçirir, müasirliyi qabardır. Onda da tarixi mövzu çərçivəsində ancaq müasir həyat problemləri kontekstində bədii həll yazıçının əsas məqsədinə çevrilir. Məsələn: M.F.Axundovun “Aldanmış kəvakib” povesti tarixilik və müasirlik estetik kateqoriyanın vəhdətində yazılmışdır. Yəni, tarixi hadisədən bir vasitə kimi istifadə edən humanist yazıçı öz dövründə hökm sürən despotizmə, cəhalətə, fanatizmə qarşı kəskin etiraz səsini qaldırmış, onları öldürücü satira atəşinə tutmuşdur. Bu

tarixilikdə müasirlik hesab edilir. Yəni tarixi mövzunun çərçivəsində ona müasir dövrün problemlərini qatmaqla əsər yazmaq tarixilikdə müasirlik keyfiyyəti adlanır.

2. Bədii həqiqət (yəni: Həyat həqiqəti) Bu da müasir həyat problemlərinin bədii əksindən irəli gəlir. Müasir həyatda baş verən hadisələr, gündəlik dəyişikliklərdir. Müasir mövzular tarix ötdükcə, zaman keçdikcə tarixi mövzulara çevrilir. Ona görə də müasir mövzular elə işlənməlidir ki, orada həyat həqiqəti olsun. İllər sonra tarixin sınağından üzü ağ çıxsın. Məsələn: Sovet rejiminin tərifi ilə bağlı- Stalin, Lenin və b. həsr edilən əsərlər zaman keçdikcə öz müasirliyini itirdi. Çünki sırf yazıçı təxəyyülündən keçməmişdir. Rejim sənətkara müdaxilə edirdi ki, real həqiqətdən çox, sovet rejiminin ancaq tərifini yazsın. Yəni bu tipli əsərlər sonrakı dövrlər üçün yox ancaq öz dövrü üçün müasir idi.

Müasir mövzu ilə mövzunun müasirliyi tamamilə fərqli anlayışdır. Tarixi və müasir mövzulu əsərlərdə müasirlik ruhu olmalıdır ki, əsərlər illər ötüb keçsə də, tarix müstəvisində qala bilsin. Bunun üçün yazıçı təxəyyülünə müdaxilə edilməməlidir. Cəmiyyət həyatında mühüm əhəmiyyəti olan məsələləri, problemləri ümumiləşdirməlidir.Yazıçı yaradıcılıq prosesində tarixi, müasir, simvolik və ya fantastik mövzulara müraciət edə bilər. Mövzunun seçilməsində əsas məsələ yazıçının ictimai marağıdır. Həyatın tələbi mövzunun başqa bir keyfiyyətini müəyyənləşdirir. Bu mövzu aktuallığıdır. Yazıçı mövzu seçməkdə sərbəstdir. Mövzu seçərkən yazıçı üçün əsas şərt mövzu müasirliyidir. Müasir həyatdakı mövzu ilə mövzunun müasirliyi fərqli anlayışdır. Belə ki, yazıçı qələmə aldığı mövzuya (istər müasir, istər tarixi) müasir məzmun verməyi bacarmalıdır. Müasirlik müasir həyatdan yazmaq deyil, müasirlik əsərdə qoyulan problemlərin bu gün ilə yaxından səsləşməsidir.

Nəticə: Beləliklə, Azərbaycan tarixi nəsrində 2 tip tarixi əsər fərqləndirilir:

I tip. Sənədlilik prinsipi ilə yazılan romanlar: “İki od arasında”, “Qılınc və qələm”, “Məşhər”, “Xudafərin körpüsü”, “Çaldıran döyüşü”, “Qızılbaşlar” və s. Bu cür tarixi romanların süjeti məlum və məşhur tarixi hadisələr üzərində qurulur. Süjetin mərkəzində isə görkəmli tarixi şəxsiyyətlərin obrazı dayanır.

II tip. Qeyri-sənədlik prinsipi əsasında yazılan, yəni tarixi hadisələri “nağıllaşdıran” romanlar: “Qızlar bulağı”, “Dəli Kür”, “Köç” və s. Bu cür tarixi bədii əsərlərin süjeti başdan-başa uydurulur, lakin əsərdə təsvir olunan tarixi hadisə və tarixi konkretlik şübhə doğurmayır. Tələb olunan isə yenə həmin dövrün ümumi səciyyəsini düzgün anlamaq və dürüst göstərməkdir. Bu cür romanlarda mövzu və süjet müəllif fantaziyası əsasında yazılır. Bəzi ədəbiyyatşünaslar sənədlərə, real tarixi hadisələrə əsaslanmağı vacib saymırlar. Onlar tarixi faktların dəqiqliyinin gözlənilməsində yox, dövrün ruhunun abu havasının düzgün verilməsində görürlər.

Təyyar Salamoğlu “80-ci illər Azərbaycan romanında janr təkamülü” monoqrafiyasında “tarixi roman” anlayışı ilə bağlı demişdir ki, “sənədlilik” prinsipi ilə yazılan əsərlərdə material tarixdən gəlir, “yazıçı fantaziyası” ilə yazılan romanlarda sənətkarın xəyalındakı, təsəvvüründəki bədii mətn əsas olur. Yəni tarixi həqiqətin bədii həqiqətə çevrilməsi yazıçı fantaziyasının, xəyalının köməyi ilə gerçəkləşdirilir.

1.Sənədlilik prinsipində qorunan tarixilik: tarixi fakt, mənbə və sənədlərin ruhu, tarixi şəxsiyyətlərin xarakteri, bütövlükdə tarixi dövrün ruhu

2. Qeyri-sənədlilik prinsipində yəni yazıçı fantaziyasında qorunan tarixilik: Tarixi dövrün ruhunun düzgün əksi, tarixi qanunauyğunluqların qorunması məntiqinin saxlanılması

Təyyar Salamoğlu rus alimi İ.P.Varfolomeyevin tədqiqatına əsaslanaraq sənədlilik əsasında yaranan romanları tarixi-realist roman tipinə, qeyri-sənədlilik əsasında yaranan

romanları yəni yazıçı fantaziyası əsasında yaranan romanları isə tarixi-romantik roman tipinə aid edir.

Müasir mövzulu əsərlərdə həyat həqiqəti, tarixi mövzulu əsərlərdə tarixi həqiqətin inikası öndədir. Lakin istər müasir, istərsə də tarixi mövzuya münasibətdə sənətkarları həqiqətin mahiyyətinə dərindən nüfuz cəhdi birləşdirir. Sənətkar tarixi mövzuda əsər yazması üçün I əsas şərt həmin tarixi materialını dərindən və hərtərəfli öyrənməlidir. Yazıçı tarixçinin zəhmətini yerə vurmamalıdır. O ən etibarlı mənbələri oxumalı, təsvir etdiyi tarixi dövrü və şəraiti gözləri qarşısında doğru-dürüst canlandırmalıdır. Tarixi həqiqətin bədii həqiqətə çevrilməsində sənətkarlıq əsas şərtdir.

Vilayət Quliyev yazır: "Müəllif tarixi faktlara münasibətdə sərbəstdir və heç kim bu sərbəstliyi onun əlindən almaq fikrində deyildir. Lakin bir şərtlə-tarixi hadisələrin mahiyyətinə, ruhuna sədaqət şərti ilə. Tarixi həqiqət düzgün əks etdirilməyəndə əsər müasirlik gücünü itirir. Çünki tarixilik kimi müasirliyin əsasında həqiqət dayanır".

Mehdi Hüseyn yazır: "Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi bədii əsər yarana bilməz".

Ədəbiyyat:

1. Bikə Əliyulla qızı Nəcəfova, Azərbaycan ədəbi tənqidində tarixilik və müasirlik problemi (1960-1980-ci illər nəsrində), Bakı, 2022
2. Təyyar Salamoğlu, Müasir Azərbaycan romanının poetikası (XX əsrin 80-ci illəri) (monoqrafiya). Bakı: Elm, 2005, 280 s.
3. Təyyar Salamoğlu, Müasir Azərbaycan romanı: janr təkamülü. (XX əsrin 80-ci illəri) (monoqrafiya). Bakı: Nafta-Press, 2007, 153 s.
4. Təyyar Salamoğlu, Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri (monoqrafiya və ədəbi-tənqidi məqalələr). Bakı: Səda, 2012.
5. Təyyar Salamoğlu, Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar (məqalələr toplusu). Bakı: "EL" NPŞ MMC, 2009, 216 s.
6. Təyyar Salamoğlu, Müasir Azərbaycan ədəbiyyatı (dərs vəsaiti). Bakı: "EL" NPŞ MMC, 2012, 314 s.]
7. Təyyar Salamoğlu, Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər. Bakı: "Orxan" NPM, 2016, 320 s.
8. Təyyar Salamoğlu, XIX əsrin sonu, XXəsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri. Bakı: "Elm və təhsil", 2021, 664 s.